# Azərbaycanın tələblərinə əməl olunmalıdır

**Azərbaycan Qarabağda suverenliyini tam bərpa etdikdən dərhal sonra orada dövlət idarəçiliyini də təmin etməyə başlayıb. Xankəndidə artıq bir sıra dövlət strukturlarının fəaliyyətinə start verilib. Burada məqsəd həm də bölgədə yaşayan erməni sakinlərin cəmiyyətimizə reinteqrasiyasını təmin etməkdir.**



Bununla bağlı "Azərbaycan"a danışan Milli Məclisin deputatı Kamran Bayramov bildirib ki, vaxtilə kriminal cinayətkar xuntanın yerləşdiyi ərazilər sentyabrın 19-20-də keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində dövlətimizin tam nəzarətinə keçib. Cəmi 23 saatlıq antiterror tədbirlərindən ötən qısa vaxtda isə Xankəndidə erməniəsilli sakinlərin yaşadığı ərazilərdə Azərbaycanın bir neçə dövlət orqanı ölkə qanunvericiliyi və beynəlxalq öhdəliklər çərçivəsində artıq fəaliyyətə başlayıb.

Deputat qeyd edib ki, burada qarşıda duran əsas məsələlərdən biri də həmin ərazilərdə yaşayan erməniəsilli sakinlərin Azərbaycan cəmiyyətinə reinteqrasiyasına nail olmaqdır. "Məlumdur ki, Azərbaycan hökuməti reinteqrasiya ilə bağlı danışıqların aparılması məqsədilə məsul şəxs müəyyən edib və tərəflər arasında artıq bir neçə görüş baş tutub. Həmçinin həmin ərazilərdə erməniəsilli sakinlərin normal yaşayışını təmin etmək məqsədilə onlara humanitar yardım göndərilib, müəyyən infrastruktur işləri görülüb və hətta Prezident Administrasiyası tərəfindən reinteqrasiyaya dair proqram da qarşı tərəfə təqdim edilib".

Kamran Bayramovun dediyinə görə, Azərbaycan tərəfi vətəndaşlığımızı qəbul edərək bizim ərazilərimizdə yaşamaq istəyən ermənilərin təhlükəsizliyinə zəmanət verir. Onların hüquq və təhlükəsizliklərinin qorunacağı barədə dəfələrlə bəyanat verilib. Şübhə yoxdur ki, müvafiq proqramlar çərçivəsində nəzərdə tutulmuş tədbirləri yerinə yetirməklə Qarabağın erməni əhalisinin reinteqrasiyası asanlaşdırılır.

"Qarabağda yaşayan ermənilər kütləvi şəkildə Ermənistana axın etsələr də, Azərbaycan hökuməti qeyd edilən həmin erməniəsilli sakinlərin istədikləri vaxt Xankəndiyə qayıda biləcəklərini dəfələrlə bəyan edib. Sadəcə, əsas şərtə əməl olunmalı, Azərbaycan vətəndaşlığı qəbul edilməli, qanunlarımıza hörmətlə yanaşılmalıdır. Nəzərə almaq lazımdır ki, Konstitusiyada nəzərdə tutulmuş hüquqlarla yanaşı, öhdəliklərin icrası da çox vacibdir", - deyə deputat söyləyib.

Kamran Bayramov əlavə edib ki, həmin ərazilərdə birgəyaşayışdan yalnız reinteqrasiya məsələləri həll olunduqdan sonra danışa bilərik. Təbii ki, bizim vətəndaşlarımız da doğma torpaqlara qayıdacaqlar. Hazırda həyata keçirilən tədbirlər də gələcəkdə birgəyaşayışın asanlaşdırılmasına və keçmiş məcburi köçkünlərin doğma yurda qayıdışına xidmət edir.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 5 oktyabr.- S.6.